**İlyasov V**. Şəhid ruhlarının bayramı... : Şəhadətiniz mübarək, əzizlərimiz! // İki sahil. - 2023. - 8 noyabr. - **№ 206**. - S. 6.

Biz türklər-ulu babamız  Oğuz Xaqanın övladları üzərində böyüdüyümüz Vətənimizi canımızdan da çox sevmişik. Ona ana demişik, uğrunda baş qoymuşuq. Bəlkə də bu sevgi ilə biz başqalarından daha çox fərqlənirik.

Ulu babalarımız yurd və torpaq uğrunda vuruşub həlak olanlara ən yüksək ad veriblər-şəhid! Onlar torpaq, Vətən üçün canlarını əsirgəməyənləri həmişə yüksək tutublar, ehtiramla anıblar, şəhadəti İlahinin qisməti adlandırıblar. Bu gün biz də min il əvvəl yaşamış babalarımızın ərlik ənənələrini ləyaqətlə davam etdiririk. Düşünürük ki, övladlarımız bizimlə bərabər, həm də Vətən torpağının övladlarıdır. Torpaq onları qucağında əzizləyəcək əbədi analarıdır...

Vətən Müharibəsini Qəhrəmanı, şəhid Orxan Cabbarovun anası Yeganə xanım söylədi ki, biz öğullarımızı hamımız üçün doğma olan müqəddəs Vətənimiz üçün böyüdürük. İgid dar gündə sınanar. Babalarımız-oğul düşmən çəpəridir-deyiblər. Əsl türk anası!

Yeganə xanım söylədi ki, kiçik yaşlarında ikən Orxan başa düşürdü ki, kənd və şəhərlərimizi dağıdıb yandıran, uşaqları, qocaları, qadınları qəddarlıqla qıran erməni əsgərləri dünyanın ən pis adamlarıdır. Ürəyində onlardan qisas almağı, torpaqlarımızdan qovub çıxarmağı düşünürdü. Həmyaşıdları ilə “dava-dava” oyunlarında heç vaxt “erməni əsgəri” olmaq istəməzdi.

Orxan yeniyetmə yaşlarında idmanın sərbəst güləş və karate növü ilə məşğul olurdu. Yarışlarda uğurlar qazanırdı. 2013-cü ildə o da tay-tuşları ilə bərabər hərbi xidmətə getdi. Elə orada da qalıb Vətənə xidmət etməyə qərar verdi. Xüsusi Təyinatlı Qüvvələrin 6 aylıq kursunu bitirərək gizir rütbəsi aldı, peşəkar hərbçi oldu.  2016-cı ilin aprelindəki dördgünlük müharibədə Tərtərin Talış kəndi istiqamətində döyüşlərdə iştirak etdi.

Dörd ildən sonra gizir Orxan Cabbarov 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük müharibədə igidlik nümunələri göstərdi. O, əlbəyaxa vuruşmalardan birində erməni zabiti ilə üz-üzə gəldi. Fiziki üstünlüyü və cəldliyi ilə zabiti yerindəcə məhv etdi. Sonralar yoldaşlarına zarafatla deyirmiş ki, zabiti yaxınlaşan ad günümdə özüm özümə hədiyyə etdim. Qəhrəman gizirimiz Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Xocavəndin işğalçılardan azad olunmasında daim ön sıralarda vuruşdu. Döyüşlərdən birində yaralansa da dostlarını, səngəri tərk etmək istəmədi. Ancaq yarasının bir qədər ağır olduğunu görən komandiri onu hərbi hospitala qısamüddətli müalicəyə göndərdi. Müalicə başa çatar-çatmaz Orxan həkimlərə təkid etdi ki, onu hospitaldan buraxsınlar, yoldaşları üçün darıxır.

Noyabr ayının əvvəlləri idi...Qarşıda son dərəcə ağır döyüşlər gözlənilirdi. Xüsusi Təyinatlı Dəstənin tərkibində vuruşan Orxan Şuşanın azadlığı uğrunda döyüşlərdə

iştirak etmək üçün səfərbər olunmuşdu. Şuşada möhkəmləndirilmiş erməni qoşun hissəsi şəhərə aparan bütün bənd-bərəni tutmuş, yol və cığırları ciddi nəzarət altında saxlamışdı. Üzbəüz hücumla şəhəri azad etmək çətin məsələ idi, ermənilər bütün hakim yüksəkliklərdə betonlaşdırılmış səngərlərdə mövqe tutmuşdular. Şuşanı əhatə edən sıldırım qayalar təbii müdafiə səddi olduğu üçün ermənilər o yerləri müdafiəsiz qoymuşdular. Ağıllarına da gəlmirdi ki, Azərbaycan əsgərləri sıldırım qayaları dırmanıb aşa bilərlər. Qayalar o qədər hündür idi ki, aşağıdan yuxarı baxanın papağı düşərdi.

Döyüş əməliyyatlarına şəxsən özü nəzarət edən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu şəraiti nəzərə alaraq əmr verdi ki, tarixi abidələrlə dolu olan Şuşa bir top mərmisi və raket atılmadan, iriçaplı silahlardan istifadə olunmadan, tarixi abidələrə ziyan vurulmadan azad edilməlidir. Azərbaycan hərbi komandanlığı həmin qayalardan dırmanıb gözlənilmədən şəhərə girməyi və əlbəyaxa döyüşlə düşməni məhv etməyi və ya qovub çıxarmağı planlaşdırmışdı. Bu xüsusi əməliyyatda döyüşlərdə ad qazanmış XTQ-nin giziri Orxan Cabbarov da iştirak etdi. Gözlənilməz hücumdan çaş-baş qalmış erməni əsgərləri özlərini toparlayıb döyüşə atıldılar. Onu da vurğulayaq ki, Şuşanı əldən vermək istəməyən Ermənistanın hərbi komandanlığı özünün seçmə hissələrini-xüsusi təyinatlıları şəhərə gətirmişdi.

Lakin Azərbaycanın xüsusi təyinatlıları ermənilərin gözləmədikləri yerdən çıxıb şəhərə girdilər. Şəhərdə gızğın döyüş əsasən avtomat, tapança və soyuq silahla oldu. Əlbəyaxa vuruşmanın sonunda namərd düşmənin atdığı minaatan mərmisi yaxınlıqda partladı və qəlpələrdən biri Orxanın min bir arzu ilə dolu sinəsinə sancıldı. Onu güllələrin dolu kimi yağdığı döyüş meydanından kənara çıxaranadək xeyli qan itirdi. Həm də yara o qədər dərin idi ki, onu ölümün pəncəsindən qurtarmaq mümkün olmadı. Çətinliklə də olsa "Anama heç nə deməyin, dərddən ürəyi partlayar" dedi. Pıçıltı ilə dediyi son sözü isə "Ayxan" oldu. Ayxana nə demək, nəyi tapşirmaq istəsə də sözünün ardını gətirə bilmədi... Ayxan Orxanın yeganə övladıdır.

Xatırladaq ki, Orxanın kiçik qardaşı Ruslan qonşu hərbi hissədə vuruşsa da qardaşının həlak olmasından xəbərsiz idi. Vuruşmanın gedişi zamanı o da yaralandı və hospitala göndərildi.

...Beləcə müharibənin 42-ci günündə-noyabrın 8-də Şuşanın azad olunduğu gündə gizir Orxan Cabbarov şəhidlik zirvəsinə ucaldı. Qələbə günündə bu dünyadan qalib əsgər kimi getdi. Döyüş yoldaşları onun cənazəsini doğulduğu Tovuz rayonuna gətirdilər. Baba yurdu Bozalqanlı kəndində ana torpağa tapşırdılar. İgid öldü, amma adı qaldı...

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində xüsusi xidmətlərinə və işğaldakı ərazilərimizin azad olunması zamanı döyüş tapşırığını yerinə yetirərkən mərdlik və igidlik göstərdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Ali

Baş Komandan İlham Əliyevin Sərəncamına əsasən, Orxan Cabbarova ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” adı verildi. O, “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Qubadlının azad lunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edildi. Bundan sonra  Tovuz rayonunun şəhər tipli Qovlar qəsəbəsindəki gimnaziya Vətən Müharibəsinin Qəhrəmanı Orxan Cabbarovun adını yüz illərlə yaşadacaq, onun mərdlik və igidlik nümunələrini gələcək nəsillərə aşılayacaqdır. Bakının Binəqədi rayonunun Biləcəri qəsəbəsindəki küçələrdən biri igid şəhidimizin adı ilə şərəflənir. Anadan olduğu Tovuzda da adına küçə və məktəb var. Orxanın ən böyük abidəsi isə qədirbilən xalqımızın, anası Yeganə xanımın qəlbində ucaldı. İndi o, hər yerdə böyük qürurla özünü “Vətən Müharibəsinin Qəhrəmanı Orxan Cabbarovun anasıyam” deyə təqdim edir. Ən başlıcası isə igid oğullarımızın adı hər birimizin və gələcək nəsillərin qəlbində əbədiyyətə qədər yaşacaqdır.

Zəfər Günündə Orxan kimi igid oğullarımızın qəhrəmanlıqları ilə fəxr edirik. Onlar Vətən qarşısında öz övladlıq borclarını axıradək şərəflə yerinə yetirdilər. Ancaq bu, son deyil, onlar kimi yüzlərlə yeni qəhrəmanınımız yetişəcək, Vətənimiz Azərbaycan onların polad çiyinləri üzərində azad və xoşbəxt yaşayacaqdır! Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfqət, əsgərlərimizə möhkəm cansağlığı arzulayırıq! Bu gün şəhid ruhlarının bayramıdır, şəhadətiniz mübarək əzizlərimiz!